UOT343.21.7

# AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYƏT MƏCƏLLƏSİNİN 351-Cİ MADDƏSİNİN TƏTBİQİ ZAMANI QARŞIYA ÇIXAN BƏZİ PROBLEMLƏR

**X.R.VƏLİYEV**
***Bakı Dövlət Universiteti***
***h.valiyev@prosecutor.gov.az***

*Cinayət qanunvericiliyinin təkmilləşdirilməsi daimi və sonsuz bir işdir. Bu işin səmərəli şəkildə həyata keçirilməsi üçün rəsmi dövlət orqanları ilə yanaşı, hüquq tədqiqatçılarının da üzərinə böyük vəzifə düşür. Baxmayaraq ki, qüvvədə olan Cinayət Məcəlləsinin əksər müddəaları kifayət qədər təkmildir, bəzən onların arasında əlavə və düzəlişlərə ehtiyacı olan normalara da rast gəlmək olur. Məqalədə maşınları idarəetmə və istismar qaydalarını pozma cinayətinin hərbi xidmət əleyhinə cinayət növü kimi həmin normanın təhlili və onların əsasında boşluqların müəyyən edilməsi və həmin boşluqların aradan qaldırılması, həmçinin qanunvericiliyin bu sahədə mövcud problemlərinin həlli yolları işlənib hazırlanmışdır.*

**Açar sözlər:** hərbi xidmət əleyhinə olan cinayət, qanunvericilik, boşluq, problem, təkmilləşdirmə, təkliflər

Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə növbəti dəfə hakimiyyətə gəlişi respublikamızın həyatının bütün istiqamətlərində, eləcə də hüquq sahəsində ciddi dəyişikliklərə səbəb olmuş, dövlətimizin qanunvericilik sistemi fundamental şəkildə dəyişmişdir.

Azərbaycanın demokratik yolla inkişafını qarşısına məqsəd qoyan Ulu Öndər bilirdi ki, bunun üçün öncə mükəmməl hüquqi bazaya ehtiyac var. Elə buna görə də Ümummilli Liderin təşəbbüsü və gərgin fəaliyyəti nəticəsində ümumxalq səsverməsi yolu ilə 12 noyabr 1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olundu. Demokratik cəmiyyətin qurulması, fəaliyyəti və inkişafı üçün bütün müddəaları özündə əks etdirən yeni Konstitusiya Azərbaycanda hüquqi dövlətin təməlini qoymaqla yanaşı, hüquqi islahatların sonrakı mərhələsinin aparılmasına da etibarlı zəmin yaratdı.

Konstitusiyada müəyyən edilmiş norma və prinsiplərə uyğun hüquqi sistemin formalaşmasına hədəflənən islahatların ikinci mərhələsi məzmun

baxımından iki istiqaməti əhatə edirdi. Onlardan birincisi, insan hüquq və azadlıqlarının, qanunçuluq və hüquq qaydasının səmərəli müdafiəsi üçün zəruri olan təsisatların, ikincisi isə həmin təsisatların işini effektiv edəcək qanunvericilik bazasının yaradılması idi.

Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsində "Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur", 149-cu maddəsində isə " Normativ hüquqi aktlar hüquqa və haqq-ədalətə (bərabər mənafelərə bərabər münasibətə) əsaslanmalıdır" kimi müddəalar öz əksini tapmışdır.

Yuxarıda göstərilənlərdən aydın olur ki, insan və vətəndaş hüquqlarını və azadlıqlarını qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur. Qeyd olunan orqanlar müvafiq qanunların qəbul edilməsi, həmin aktların icraya yönəldilməsi və hüquq pozuntuları zamanı təqsirkar şəxsi müəyyən etməklə həmin şəxslərin məsuliyyətə cəlb edilməsinin əsaslarını müəyyən edir.

Cinayət Məcəlləsində əksini tapan normalar ictimai təhlükəliliyi ilə ön plana çıxır ki, bu da həmin qanunvericiliklə digər qanunların arasında ən başlıca fərqdir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsində əksini tapan normalar insanların həyat və sağlamlığını, cəmiyyət və dövləti cinayət xarakterli əməllərdən qorumaq məqsədi daşıyır.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 dekabr tarixli 852 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019–2023-cü illər üçün Dövlət Proqramı" təsdiq edilməsi yol hərəkət təhlükəsizliyinin təmin edilməsinin dövlətin həyata keçirdiyi siyasətin əsas istiqamətlərindən biri hesab olunduğunu göstərir.

Sözügedən proqram Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyi səviyyəsinin artırılması vasitəsilə yol-nəqliyyat hadisələrinin sayının və bu hadisələr nəticəsində ölkəyə dəyən sosial-iqtisadi zərərin azaldılması istiqamətində tədbirləri özündə ehtiva edir. Dövlət Proqramının əsas məqsədi yol-nəqliyyat hadisələrinin, xüsusilə də ölümlə və sağlamlığa zərər vurulması ilə nəticələnən yol-nəqliyyat hadisələ-rinin sayının, habelə ölkə iqtisadiyyatına və ekologiyasına dəyən ziyanın həcminin azaldılması üçün zəruri tədbirlərin görülməli olduğu həmin proqramda öz əksini tapmışdır.

Dövlət Proqramının əsas istiqamətləri üzrə tədbirlərdən birini də yol hərəkətinin təhlükəsizliyi sahəsində idarəetmə təşkil edir. Bu tədbir özündə mövcud normativ hüquqi bazanın təkmilləşdirilməsi, yol hərəkətinin təhlükəsizliyi sahəsində vahid dövlət siyasətini formalaşdıran və onun həyata keçirilməsini təmin edən, nəzarət və əlaqələndirmə funksiyasını icra edən daimi əsaslarla fəaliyyətin təşkil edilməsini birləşdirir.

Bundan başqa, sözügedən dövlət proqramında yol hərəkətinin təhlükəsizliyi sahəsində Azərbaycan Respublikasının imzalamadığı və ya ratifikasiya etmədiyi beynəlxalq müqavilələrə qoşulması, qoşulduğu beynəlxalq müqavilələrin səmərəli həyata keçirilməsinin təmin edilməsi və bu sahədə zəruri tədbirlər görülməsi ilə yanaşı, həm də mövcud normativ hüquqi bazanın təkmilləşdirilməsi də nəzərdə tutulmuşdur.

Müasir dövrdə nəqliyyat vasitələrinin sayının çoxalması, onların yüksək sürətlə və sıx şəkildə hərəkəti sürücülərdən xüsusi diqqət tələb etməklə, həmin nəqliyyat vasitəsinin idarə olunmasını çətinləşdirir. Bu xüsusat həmçinin texnoloji və elektron qurğularla təchiz edilmiş xüsusi hərbi nəqliyyat vasitələrinə də şamil olunur. Nəqliyyat vasitələrinin göstərilən şəraitdə idarə olunması müvafiq yol hərəkəti qaydalarının pozulması və ağır nəticələrə səbəb olma ehtimalını artırır.

Nəqliyyat vasitələrinin sayının artması son dövrlərdə yol nəqliyyat hadisələrinin də sayının artımına əsaslı təsir etmişdir.

Yol-nəqliyyat hadisələrinin, eləcə də yol-nəqliyyat hadisələrində həlak olan və yaralananların son üç ildə artım dinamikası ilə hərəkəti bu sahəyə xüsusi diqqət yetirməyi tələb edir (yol-nəqliyyat hadisələrinin artım dinamikası müvafiq olaraq statistik cədvəldə[1] göstərilmişdir).

| Yol-nəqliyyatı hadisələrinin qeydə alındığı illər | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| Yol-nəqliyyatı hadisələrinin sayı | 1.587 | 1.649 | 1.668 |
| Yol- nəqliyyat hadisələrində həlak olanların sayı (nəfər) | 696 | 706 | 834 |
| Yol- nəqliyyat hadisələrində yaralananların sayı (nəfər) | 1.410 | 1.452 | 1.456 |

Göründüyü kimi yol nəqliyyat hadisələrinin artım tempi qanunvericiliyin bu sahədə təkmilləşdirilməsini və müvafiq əmələ hüquqi qiymət verilməsini zəruri edir.

Cinayət Məcəlləsində nəzərdə tutulmuş "Maşınları idarəetmə və istismar qaydalarını pozma" cinayət əməli də bunlardan biridir. Sözügedən norma Cinayət Məcəlləsinin hərbi xidmət əleyhinə olan cinayətlər bölməsində 351-ci maddəsində əksini tapmışdır.

Qeyd olunan maddənin qanunvericilikdə mövcud olması müvafiq nəqliyyat vasitələrinin onların təyinatı üzrə aidiyyəti normalarda müəyyən edilmiş qaydalara uyğun şəkildə qarşıya qoyulmuş tapşırığın müvəffəqiyyətlə yerinə yetirilməsi və texniki vasitənin təhlükəsiz istismarının təmin edilməsinə xidmət edir.

[1] Cədvəl Azərbaycan Statistik İnformasiya Sistemindən götürülmüşdür. https://www.azstat.org/portal/tblInfo/TblInfoList.do;JSESSIONID=EEBB8560ED5D20F253BE615A949AF3C3#

Nəzərə almaq lazımdır ki, nəqliyyat vasitəsinin idarə edilməsi və istismarı ilə bağlı təhlükəsizlik qaydaları özlüyündə iki yerə bölünür:

1) həmin nəqliyyat vasitəsinin idarə edilməsi və istismarı ilə bağlı təhlükəsizlik qaydaları 2) nəqliyyat vasitəsinin idarə edilməsi və istismarı ilə bağlı olmayan və sadəcə mexanizmlə iş zamanı texniki təhlükəsizlik qaydaları.

Nəqliyyat vasitəsinin idarə edilməsi və istismarı zamanı təhlükəsizlik qaydalarına riayət edilməməsi ilə yol hərəkəti zamanı digər iştirakçıların həyat və sağlamlığına, eləcə də əmlakına zərər vurula bilər.

Hərbi nəqliyyat vasitələrinin idarə edilməsi və istismarı zamanı təhlükəsizlik qaydalarına riayət edilməməsi isə yuxarıda qeyd edilən münasibətlərə zərər vurmaqla yanaşı, həmçinin hərbi tapşırıqların icrasına, şəxsi heyətin həyat və sağlamlığına, hərbi hissələr və bölmələrin maddi-texniki təminatına zərər vurur.

Bu səbəbdən də, qeyd olunan norma xüsusi norma kimi hərbi xidmət əleyhinə cinayətlər fəslində verilmişdir. Sözügedən norma blanket xarakterli norma olduğundan, burada digər normalara istinad olunmaldır. Belə ki, nəqliyyat vasitəsinin idarə edilməsi, həmçinin istismarı qaydaları yol hərəkəti qaydaları ilə, avtomobil xidməti sahəsində, eləcə də nəqliyyat vasitəsinin xüsusiyyəti və texniki vasitələrdən asılı olaraq mövcud müvafiq təlimatlar, göstərişlər və digər normativ hüquqi aktlarla müəyyən edilir.

Bununla yanaşı qeyd olunmalıdır ki, hərbi nəqliyyat vasitələrinin idarə edilməsi və istismarı xüsusi və yolsuzluq şəraitində həyata keçirilə bilər. Bu onların icra etdikləri hərbi tapşırıqlardan, eləcə də bu və ya digər səbəblərdən asılı ola bilər.

Hərbi nəqliyyat vasitələrinin idarə etmə və istismarı qaydalarının pozulması bir çox hallarda insanın həyat və sağlamlığına zərər vurmaqla yanaşı, həm də hərbi xidmətlə bağlı münasibətlərə ziyan vura biləcək nəticələrə səbəb ola bilər ki, bu da özünü hərbi və digər əhəmiyyətli tapşırıqların icrasında müəyyən problemlərin yaranmasına və icrasının mümkünsüz olmasında göstərir.

Bu səbəbdən də, hərbi nəqliyyat vasitəsinin idarə və istismar qaydalarının pozulması əməlində yol hərəkəti qaydaları ilə yanaşı, digər hallar da nəzərdə tutula bilər.

Döyüş və ya xüsusi təyinatlı nəqliyyat vasitələrini, yaxud hərbi texnikanı idarəetmə və istismar qaydalarının pozulması zamanı həmin vasitələrin istismar və idarə etmə qaydalarını müəyyən edən xüsusi normativ hüquqi aktlara baxılması zəruridir. Burada hərbi texnika və vasitənin növündən asılı olaraq onun istifadə qaydalarını müəyyən edən xüsusi normalar mövcuddur. Bunların sırasında “Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsi”, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmə-

tinin Hərbi Hissələrinin Nəqliyyat (avtomobil və zirehli texnika) Texnikası ilə Təminatına Dair Təlimat", Müdafiə Nazirliyinin əmrləri ilə təsdiqlənmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrində Avtomobil Texnikası istifadə Qaydaları haqqında Təlimat" və "Silahlı Qüvvələrdə Avtomobil xidməti haqqında Təlimat" və bu kimi digər normativ hüquqi aktları göstərə bilərik.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 351-ci maddəsinin dispozisiyasına nəzər salınsa, burada sadəcə döyüş və xüsusi təyinatlı nəqliyyat vasitələrinin, eləcə də hərbi texnikanın adını görə bilərik.

Buradan aydın olur ki, hərbi qulluqçunun qəza törədərkən idarə etdiyi nəqliyyat vasitəsi hərbi texnika, döyüş və ya xüsusi təyinatlı nəqliyyat vasitələri deyildirsə, bu zaman həmin şəxs CM-nin 351-ci maddəsi il deyil, CM-nın 263-cü maddəsi ilə məsuliyyətə cəlb olunmalıdır.

Nəzərə alınmalıdır ki, döyüş təyinatlı nəqliyyat vasitəsi dedikdə, tanklar, zirehli transportyorlar, piyadanın döyüş maşınları, artilleriya və digər silahları qoşqu vasitəsilə çəkən vasitələr, dartıcılar və bu kimi digər nəqliyyat vasitələri, xüsusi nəqliyyat vasitələri dedikdə isə, xüsusi tapşırıqların yerinə yetirilməsi üçün özüyeriyən texniki vasitələr və maşınlar, hərbi texnika dedikdə isə, hərbi məqsədlər üçün nəzərdə tutulmuş minik və yük avtomobilləri, traktorlar, yol tikinti və qaldırıcı texnikalar və s. nəzərdə tutulur.

CM-nin 351-ci maddəsi xüsusi norma hesab olunmasına baxmayaraq CM-nin 263-cü maddəsi ilə oxşarlıqları olsa da fərqli cəhətləri də vardır. Həm də, CM-nin 351-ci mad-dəsinin dispozisiyası qeyri-dəqiq və tam müəyyən edilməmişdir. Bu cür hallar CM-nin 351-ci maddəsinin tətbiqində müəyyən problemlər yaratmaqla yanaşı, müvafiq əməlləri törədən şəxslərin məsuliyyətdən kənar qalmasına şərait yaradır və yaxud onların əməllə-rinə qanunauyğun şəkildə düzgün hüquqi qiymət verməsini istisna edir. Fikrimizcə qeyd olunan problemlərin həll edilməsinə və normanın yenidən işlənməsinə ehtiyac vardır.

CM-nin hərbi xidmət əleyhinə olan cinayətlər bölməsində "Maşınları idarəetmə və istismar qaydalarını pozma" cinayət əməlinin nəzərdə tutulması həmin əməlin CM-nin 263-cü maddəsinin dispozisiyasında nəzərdə tutulmuş əməldən fərqləndirici xüsusiyyətlərdən biri də maşınların, yəni döyüş və ya xüsusi təyinatlı nəqliyyat vasitələrini, yaxud hərbi texnikasının Silahlı Qüvvələrə və digər hərbi birləşmələrə məxsus olmasıdır[1].

CM-nin 351.1-ci maddəsində göstərilmişdir ki, döyüş və ya xüsusi təyinatlı nəqliyyat vasitələrini, yaxud hərbi texnikanı idarəetmə və istismar qaydalarının pozulması ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az

[1] «Комментарий к уголовному кодексу российской федерации» отв. Ред. А.В.Наумов, Москва, 1996, с. 792

ağır zərər vurduqda məsuliyyətə səbəb olur.

Qeyd olunmalıdır ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 351-ci maddəsində həmin Məcəllənin 263-cü maddəsində göstərilən nəticələrə səbəb olmaqla bu maddədə nəzərdə tutulmuş cinayətin obyektiv cəhətinə aid olan oxşar əməllərin xüsusi subyektlər (bir qayda olaraq hərbi qulluqçular) tərəfindən döyüş, xüsusi və ya nəqliyyat maşınlarını idarəetmə və istismarı qaydalarını pozmaqla törədilməsinə görə cinayət məsuliyyəti müəyyən edilmişdir.

Cinayət qanununun bu normasının tələbinə görə, döyüş, xüsusi və ya nəqliyyat maşınlarını idarə edən şəxs (hərbi qulluqçu) həmin maşınların idarəetmə, o cümlədən yol hərəkəti və ya onların istismarı qaydalarını pozduqda və bu pozuntular ehtiyatsızlıqdan zərər çəkmiş şəxsin sağlamlığına az ağır, ağır zərər vurulmasına, onun ölümünə, habelə iki və daha çox şəxsin ölümünə səbəb olduqda, təqsirli hesab olunan şəxs CM-nin 351-ci maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilir.

Göründüyü kimi, CM-nin 351-ci maddəsinin obyektini həm Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Nizamnamələrində, həm də müxtəlif normativ hüquqi aktlarda, o cümlədən "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş döyüş, xüsusi və ya nəqliyyat maşınlarının idarə edilməsi və istismarı qaydaları təşkil edir.

Qeyd olunan hərbi cinayət CM-nin 263-cü maddəsində nəzərdə tutulmuş cinayətdən yalnız cinayətlərin predmetinə və subyektinə görə fərqlənir.

Nəzərə alınmalıdır ki, döyüş, xüsusi və hərbi maşınları idarəetmə dedikdə hərəkətdə olan maşını bilavasitə idarə etmək prosesi, yəni sürmək başa düşülür. Bu hərəkət nəqliyyat vasitəsinin hərəkətə gətirilməsi ilə başlayır və hərəkətin dayandırılması ilə sonlanır[1].

Döyüş, xüsusi və hərbi maşınların istismarı dedikdə isə, onlardan təyinatına uyğun istifadə etmə və onlara zəruri texniki xidmət göstərmə başa düşülür[2].

İdarəetmə və istismar qaydalarının müxtəlif məna ifadə etmələrini nəzərə alaraq normanın düzgün tətbiq edilməsi üçün bu iki ifadə normada birlikdə deyil, ayrılıqda göstərilməlidir.

Beynəlxalq təcrübəyə nəzər salsaq görərik ki, xarici ölkələrin cinayət məcəllələrində qeyd olunan xüsusat daha aydın verilməklə yanaşı, həmçinin nəqliyyat vasitəsinin idarə edilməsi ilə istismarı bir-birindən ayrı şəkildə tət-

[1] "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası" elmi redak. F.Y.Səməndərov, Bakı 2018, s. 1021

[2] Yenə orada.

biq edilməsi öz əksini tapmışdır. Bura biz Rusiya Federasiyasının[1], Ukrayna[2] və Qazaxıstan Respublikalarının[3] Cinayət Məcəllələrini misal göstərə bilərik.

Mövcud qanunvericilikdə idarəetmə və istismar qaydalarının birlikdə göstərilməsi həmin müddəaların düzgün tətbiq edilməməsinə səbəb olmaqla yanaşı, müxtəlif anlam verməsinə baxmayaraq hər iki hərəkətin birlikdə törədilməsi zamanı CM-nin 351-ci maddəsinin dispozisiyasında nəzərdə tutulan əməli xarakterizə edir. Bu səbəbdən də, həmin hərəkətlərdən birinin mövcud olmaması zərər vurduğu obyektdən asılı olmayaraq adıçəkilən müddəa ilə məsuliyyətə səbəb olmur. Bu da, öz növbəsində həmin müddəanın ədalətli tətbiqini istisna etməklə cəzasızlıq mühiti yaradır.

Odur ki, CM-nin 351-ci maddəsində əksini tapan "və" bağlayıcısının "və ya" bağlayıcısı ilə əvəz edilməsi müvafiq maddənin dispozisiyasında əksini tapan əməllərin ayrılıqda tətbiq edilməsinə şərait yaradacaqdır.

Bundan əlavə, döyüş, xüsusi və hərbi maşınları idarəetmə və istismar qaydalarını pozma cinayətlərinə dair işlərin, həmin cinayətlərin törədilməsi hallarının təhlili belə nəticəyə gəlmək üçün əsas verir ki, bəzi hallarda bu cinayətlər həm sərxoş vəziyyətdə olan, həm də döyüş, xüsusi və ya nəqliyyat maşınlarını idarə etmək hüququ olmayan şəxs tərəfindən törədilə bilər, digər tərəfdən isə qeyd edilən hərbi cinayəti törətmiş şəxsin müxtəlif səbəblərdən hadisə yerindən qaçması halları da istisna edilmir.

Bununla belə, CM-nin 263-1-ci maddəsinin dispozisiyasına əsasən, şəxs həmin Məcəllənin 263.1-ci maddəsində nəzərdə tutulmuş əməlləri sərxoş vəziyyətdə və ya nəqliyyat vasitəsini idarə etmək hüququ olmadan törətdikdə həmin maddə ilə cinayət məsuliyyətinə cəlb edildiyi halda, eyni şəraitdə 351-ci maddənin təsiri altına düşən xüsusi subyekt tərəfindən törətdiyi əmələ görə məsuliyyət müəyyən edən müvafiq norma cinayət qanun-

---

[1] *Уголовный кодекс Российской Федерации «Статья 350. Нарушение правил вождения или эксплуатации машин. Нарушение правил вождения или эксплуатации боевой, специальной или транспортной машины, повлекшее по неосторожности причинение тяжкого вреда здоровью человека»*
*https://continent-online.com/Document/?doc_id=30397073#pos=4456;-60*

[2] *Уголовный кодекс Украины «Статья 415. Нарушение правил вождения или эксплуатации машин. Нарушение правил вождения или эксплуатации боевой, специальной либо транспортной машины, причинившее потерпевшему средней тяжести либо тяжкие телесные повреждения или гибель потерпевшего»*
*https://online.zakon.kz/Document/?doc_id=30418109&pos=6;-106#pos=6;-106*

[3] *Уголовный Кодекс Республики Казахстан. «Статья 463. Нарушение правил вождения или эксплуатации машин. Нарушение правил вождения или* эксплуатации боевой, специальной или транспортной машины, повлекшее по неосторожности причинение средней тяжести вреда здоровью человека»
*https://online.zakon.kz/Document/?doc_id=31575252&pos=5;-106#pos=5;-106*

vericiliyində mövcud deyil.

Göründüyü kimi, Məcəllənin 351-ci maddəsinin hazırki redaksiyası bu kimi hallarda, yəni sərxoş vəziyyətdə olan və ya döyüş, xüsusi və ya nəqliyyat maşınlarını idarə etmək hüququ olmayan şəxs tərəfindən törədilməsi zamanı, həmin şəxsin CM-nin 351-ci maddəsi ilə məsuliyyətə cəlb edilməsinə imkan vermir.

Digər tərəfdən, CM-nin 264-cü maddəsinin tələbinə görə, şəxsin bu maddə ilə məsuliyyəti o vaxt yaranır ki, o, CM-nin 263 və ya 263-1-ci maddələri ilə nəzərdə tutulmuş cinayəti törətdikdən sonra hadisə yerindən qaçmış olsun. Buna baxmayaraq CM-nin 351-ci maddəsində nəzərdə tutulmuş cinayəti törətmiş şəxs isə hadisə yerindən qaçdıqda o, bu əməlinə görə hazırda qüvvədə olan CM-nin tələbinə görə heç bir məsuliyyət daşımır.

Bundan əlavə, Döyüş və ya xüsusi təyinatlı nəqliyyat vasitələri, yaxud hərbi texnika nasaz vəziyyətdə istismara buraxıldıqda və ya idarəetməyə verildikdə, cavabdeh tərəfindən müvafiq qaydaların düzgün icra edilməməsi nəticəsində döyüş tapşırıqlarının icra olunmaması və ya tələb olunan səviyyədə yerinə yetirilməməsi, eləcə də digər ağır nəticələr, yəni şəxsi heyət üzvlərinin ağır xəsarət almaları və ya ölmələri və sair hadisələr baş verə bilər ki, qanunvericilikdə müvafiq normanın əks olunmaması bu qəbildən olan əməllərə düzgün hüquqi qiymət verilməməsinə səbəb olacaqdır. Bu xüsusat şəxsin məsuliyyətdən kənar qalmasına şərait yaratmaqla qanunvericiliyin ədalətsizliyinə gətirib çıxaracaqdır.

Bu səbəbdən də, hesab edirik ki, qeyd olunan xüsusatın da, həmin normada öz əksini tapması məqsədəmüvafiqdir.

Göründüyü kimi, qanunvericiliyin bu sahədəki boşluqları, həmin normanın düzgün tətbiq edilməməsinə və təqsirkarın qanunla müəyyən olunmuş məsuliyyətdən kənar qalmasına şərait yaradır.

Bundan əlavə, nəzərə alınmalıdır ki, 263-1-ci maddə yəni, "Yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarını sərxoş halda və ya nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs tərəfindən pozma" cinayət əməli faktiki olaraq ayrılıqda deyil, həmin Məcəllənin 263-cü maddəsində nəzərdə tutulmuş əməllə əlaqəli şəkildə tətbiq edilir.

Fikrimizcə normanın CM-də bu cür əks olunması müvafiq normaların lüzumsuz yerə çoxluğuna şərait yaratmaqla normativ hüquqi aktın tərtib edilməsi üslubuna ziddir.

Bununla yanaşı, CM-nin 263-1-ci maddəsinin həmin Məcəllənin 263-cü maddəsinin tövsifedici, yəni ağırlaşdırıcı əlamət kimi çıxış etməsini nəzərə alaraq həmin normaların ayrılıqda deyil, bir maddə altında verilməsi, yəni 263-1-ci maddə ilə 263-cü maddənin birləşdirilməsi məqsədəmüvafiq hesab olunur.

Bir daha qeyd etməliyik ki, normativ hüquqi aktlar hüquqa və haqq-

ədalətə əsaslanmalıdır. Ədalət mühakiməsinin həyata keçirilməsinin və bərabər balansın müəyyən edilməsi üçün fundamental prinsip ədalətlilikdir[1]. Bu müddəalar Azərbaycan Respublikası Konstitusiyasının 149.1-ci maddəsində əksini tapmaqla digər normativ hüquqi aktlar üçün rəhbər tutulur.

Bundan əlavə, qanunvericilikdə müvafiq boşluqların olması əməlin düzgün tövsif edilməməsinə, normaların dəqiq tətbiq edilməməsinə səbəb olmaqla, hüquqi boşluqların mövcudluğu ilə əlaqədar olan tipik sui-istifadə amili hesab olunur ki, bu da "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 62 və 65-ci maddələrinin tələblərinə zidd hesab olunur.

Odur ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 351-ci maddəsində olan boşluqların aradan qaldırılması üçün həmin normaya müvafiq dəyişikliklər edilməsi, həmçinin əməli sərxoş vəziyyətdə və ya nəqliyyat vasitəsini idarə etmək hüququ olmadan törətdikdə təqsirləndirilən şəxsin cinayət məsuliyyətinə cəlb olunmasını, eləcə də 351-ci maddəsində nəzərdə tutulmuş cinayəti törətmiş şəxsin hadisə yerindən qaçması ilə bağlı məsuliyyət müəyyən edən müddəaların Cinayət Məcəlləsinə əlavə edilməsi məqsədəuyğun hesab olunur.

Yuxarıda göstərilənlərin nəzərə alınaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 351-ci maddəsinin yeni redaksiyada verilməsini, həmçinin yeni məzmunda 351-1-ci maddənin əlavə olunmasını təklif edirik.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin kommentariyası. II hissə / red. F.Y.Səməndərov. - Bakı: Hüquq Yayın evi, - 2018, - 799 s.
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi Bakı: Hüquq yayın evi, 2023, 908 s.
3. Azərbaycan statistik informasiya sisteminin məlumatı.(https://www.azstat.org/ portal/ tblInfo/TblInfoList.do;JSESSIONID=EEBB8560ED5D20F253BE615A949AF3C3#)
4. AFFAIRE BODDAERT c. BELGIQUE» (Boddaert Belçikaya qarşı). https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-57768%22]}
5. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə. Ali məktəblər üçün dərslik. Yenidən işlənmiş təkrar nəşr. - Bakı: Hüquq yayın evi, - 2018, - 724 s.
6. Hüquq Nəzəriyyəsi. F.Mehdiyev, E.Quliyev. - Bakı: - 2018, - 430 s.
7. Комментарий к уголовному кодексу Российской Федерации» отв. Ред. А.В.Наумов. – Москва: Юрист, - 1996, - 824 s.
8. Научно-практический Комментарий УПК РСФСР. отв. Ред. Б.С.Никифиров. – Москва: - 1970, - 674 s.
9. Иванов Н. Г. Уголовное право. Общая часть в 2 т. Том 1: учебник для вузов / Н.Г.Иванов. — 3-е изд., перераб. и доп. — Москва: Юрайт, 2020. — 275 с. — (Высшее образование). — ISBN 978-5-534-01683-3.


[1] «AFFAIRE BODDAERT c. BELGIQUE» ("Boddaert Belçikaya qarşı" Avropa İnsan Hüquqları Məhkəməsinin Qərarı) https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-57768%22]}

10. Рагимов И.М. Философия преступления и наказания. - Санкт-Петербург: Юридический центр Пресс, 2013. — 290 с. — ISBN 978-5-94201-668-5 ...
11. Уголовный кодекс Российской Федерации. (https://continent-online.com/ Document /?doc_id=30397073#pos=4456;-60)
12. Уголовный кодекс Украины (https://online.zakon.kz/ Document /?doc_id=30418109&pos=6;-106#pos=6;-106)
13. Уголовный Кодекс Республики Казахстан. (https://online.zakon.kz/ Document/?doc_id=31575252&pos=5;-106#pos=5;-106)
14. Эминов В.Е., Мацкевич И.М. Преступность военнослужащих (исторический, криминологический, социально-правовой анализ). Монография. – Москва: - 1999, - 260 с

## НЕКОТОРЫЕ ПРОБЛЕМЫ, ВОЗНИКАЮЩИЕ ПРИ ПРИМЕНЕНИИ СТАТЬИ 351.1 УГОЛОВНОГО КОДЕКСА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Х.Р.ВЕЛИЕВ**

### РЕЗЮМЕ

Дело по совершенствованию уголовного законодательства характеризуется регулярностью и неисчерпаемостью. Для оптимального проведения данного дела ответственны как официальные органы власти, так и научные исследователи. Несмотря на то, что действующий Уголовный Кодекс имеет обширный круг усовершенствованных норм, некоторые его статьи нуждаются в дополнениях и изменениях. В статье на основе анализа нормы, связанной с преступлением по нарушению правил вождения и эксплуатации транспортных средств, как одного из видов преступлений против воинской службы, выявлены пробелы, а также разработаны пути устранения этих пробелов и решения других существующих проблем законодательства в этой сфере.

**Ключевые слова:** преступления против воинской службы, законодательство, пробел, проблема, усовершенствование, предложения.

## SOME PROBLEMS ENCOUNTERED DURING THE IMPLEMENTATION OF ARTICLE 351 OF THE CRIMINAL CODE OF THE REPUBLIC OF AZERBAIJAN

**Kh.R.VALIYEV**

### SUMMARY

Improvement of the criminal legislation is a job of regularity and inexhaustibility. For effective implementation of this task along with the officials state authorities also legal researchers bear responsibility. Although most of the provisions of the current Criminal Code are sufficiently developed, but sometimes are found that some norms needs additions and amendments. For example, violating the rules of driving and operating cars as a crime against military service, analysis of that norm and identifying gaps based on analysis, and arranging the same gaps as well as legislation has drafted ways to solve existing problems in this field.

**Keywords*:*** criminal procedure, legislation, gaps, problems, improvement, offers.